**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsi*

# NAXÇIVANIN MUXTARİYYƏT STATUSUNUN QORUNUB SAXLANILMASI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİ

Çoxəsirlik dövlətçilik tarixində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasının yaradılmasından 85 il keçir. Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb etdiyini və onun xalqımızın həyatında əlamətdar hadisə olduğunu nəzərə alan Ölkə Prezidenti İlham Əliyev tarixi günlə bağlı 2009-cu il fevralın 6-da xüsusi sərəncam imzalamışdır. Sərəncamda deyilir: «Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik Naxçıvan diyarı çətin, mürəkkəb və eyni zamanda parlaq inkişaf yolu keçmişdir»(2, 2009, 7 fevral).

Naxçıvan diyarı muxtariyyət ərəfəsində və sonrakı illərdə çox mürəkkəb tarixi inkişaf yolu keçmiş, bir an da olsa özünü Azərbaycandan ayrı təsəvvür etməmişdir. Bütün dövrlərdə Naxçıvan nəinki qonşu dövlətlər, həmçinin dünyanın bir sıra dövlətləri üçün də çox böyük coğrafi-siyasi və strateji əhəmiyyət kəsb etmişdir. Xüsusilə, keçən əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu ərazini Ermənistana qatmaq üçün bütün vasitələrə əl atmışdır. Bölgə əhalisinin inadlı müqavimətləri nəticəsində Naxçıvan Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış və son nəticədə ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Naxçıvanın muxtariyyət statusu qazanması bu bölgədə 1918-1921-ci illərdə cərəyan edən proseslərin, onlara təsir edən daxili və xarici amillərin, bölgənin və regionun geosiyasi vəziyyətinin və iki mühüm beynəlxalq müqavilənin sayəsində olmuşdur.

Naxçıvanın muxtariyyət statusu qazanması həqiqətən də çox çətin və mürəkkəb mübarizələrin, bir sıra görkəmli şəxsiyyətlərin diplomatik səylərinin nəticəsində əldə edilmişdir. Naxçıvana muxtariyyət statusunun verilməsi (1921), sonra isə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının təşkil edilməsinin (1924) böyük tarixi əhəmiyyəti olmaqla, bu diyarın sonrakı taleyində çox mühüm rol oynamışdır. Bu cəhəti nəzərə alan görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyev demişdir: «Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi. Naxçıvanın muxtariyyət statusu alması çox ağır bir dövrdə, gərgin mübarizələr nəticəsində mümkün olmuşdur» (9, s.6).

Həqiqətən də Naxçıvan əhalisi, həmin dövrün demokratik ruhlu ziyalıları bölgənin təhlükəsizliyinə, erməni daşnaklarının hərbi basqınlarına qarşı mərdliklə mübarizə aparmış, öz qanları bahasına qədim diyarı hər tərəfdən qorumuşlar. Hələ 1918-ci ildə Naxçıvan Milli Şurası Xalq Cümhuriyyəti hökumətinə yazdığı məktubda göstərirdi ki, biz ermənilərə tabe olmuruq, tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun tutulmasını və Naxçıvanın Azərbaycana birləşməsini gözləyirik.

Qədim diyarın əhalisi hələ o vaxt öz qəti fikrini bildirərək and içmişdi ki, «Biz Avropanın mədəni ölkələrinin alovları içərisində yanmağa razı olarıq, lakin Naxçıvanı Azərbaycandan ayırmağa qoymarıq» (10, s.29).

Naxçıvan İnqilab Komitəsinin Azərbaycan hökumətinə 1920-ci il 10 avqust tarixli məktubunda da bildirilirdi ki, Naxçıvan xalqının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan özünü Azərbaycanın ayrılmaz hissəsi hesab edir (7, s.18).

1921-ci ilin əvvəllində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda bölgə əhalisinin 90 faizindən çoxu Naxçıvan diyarının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi (6, s.95).

Qədim diyarın muxtariyyət statusu məsələsində N.Nərimanovun prinsipial mövqeyi, onun adından B.Şahtaxtinskinin Moskvada apardığı danışıqlar və 1921-ci il martın 1-də V.Leninə göndərdiyi məktub nəhayət Rusiyanın Naxçıvan məsələsinə münasibətini müsbət istiqamətdə dəyişməsinə səbəb oldu. Nəticədə Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında dostluq və qardaşlıq haqqında imzalanan Moskva müqaviləsində təsbit edildi: «Razılığa gələn hər iki tərəf hazırkı müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu himayə haqqını heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir» (8, s.33). Bu müqavilə Naxçıvanın taleyinin həll edilməsində tarixi rola malik oldu.

1921-ci il oktyabrın 13-də RSFSR-in iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Türkiyə arasında imzalanmış Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyətini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Burada göstərilirdi ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir (8, s.46-47).

Naxçıvan diyarının tarixi taleyini, yəni onun Azərbaycan SSR-in tərkibində muxtar respublika kimi qalmaq imkanlarını bu beynəlxalq müqavilələr reallaşdırdı. Həmin müqavilələrlə Rusiya, Türkiyə və Cənubi Qafqaz respublikaları Naxçıvana Azərbaycanın tərkibində muxtar qurum kimi tanınan beynəlxalq hüquqi təminat verdilər.

Muxtar qurumlar yaranma əsaslarına görə milli-ərazi və inzibati-ərazi əlamətlərinə ayrılır. Naxçıvan Muxtar Respublikası dövlətin əsas ərazilərindən tam təcrid olunmuş vəziyyətdə – «anklav» ərazi kimi geosiyasi əsasa görə yaranmışdır. Belə coğrafi-siyasi əlamət tarixi zərurət kimi Naxçıvana muxtar hüquqların verilməsini şərtləndirmiş və qismən özünü idarə hüququnun tanınmasına yol açmışdır. Çünki Zəngəzur mahalının Ermənistan tərəfindən işğal edilməsi ilə Naxçıvan diyarı Azərbaycanın əsas ərazilərindən aralı düşmüş, nəticədə onun muxtariyyət məsələsi gündəliyə gəlmişdir. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, «əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi» (1, c.14, s.75).

Bu diyara muxtariyyət statusunun verilməsi ilə Azərbaycan SSR Naxçıvan üzərində hüquqlarından irəli gələn vəzifələri həyata keçirirdi. Lakin Naxçıvanın Azərbaycan SSR tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevralınadək ləngidildi. 1924-cü il fevralın 9-da isə Azərbaycan SSR MİK-in dekretinə əsasən Naxçıvan muxtar ölkəsi Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrildi. Bununla da qədim diyarın statusu qəti şəkildə müəyyənləşdirildi.

Naxçıvan 1921-ci il martın 16-dan Naxçıvan SSR, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb. Burada bir məsələ də qeyd olunmalıdır ki, Naxçıvan 1921-ci ildən Azərbaycanın muxtar qurumu kimi idarə olunsa da,30-cu illərin ortalarına qədər o bütün rəsmi sənədlərdə Naxçıvan SSR yazılmışdır.

Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində Azərbaycan SSR MİK tərəfindən təsdiq edilmiş Naxçıvan MSSR haqqında Əsasnaməsinin qəbuli ilə başlanmışdır. Bu Əsasnaməyə görə Naxçıvan Azərbaycan SSR-in tərkib hissəsi kimi ona muxtar respublika şəklində daxil olurdu (11, s.16-17).

Naxçıvanın Azərbaycanla qarşılıqlı münasibətləri Azərbaycanın Konstitusiyası ilə müəyyənləşdirildi. Qeyd etməliyik ki, qəbul olunmuş Əsasnamə muxtar respublikanın ictimai-siyasi, iqtisadi həyatını tənzimləyən əsas qanunverici akt olmuşdur. Bununla da Naxçıvan özünün qanunverici orqanları, icra hakimiyyəti olan muxtar quruma çevrilmişdi. Bu isə 1926-cı il aprelin 18-də qəbul edilmiş Naxçıvan MSSR-in I Konstitusiyasında hüquqi cəhətdən təsbit olundu. Naxçıvan MSSR-in sonrakı Konstitusiyalarında da Naxçıvan Azərbaycan SSR-in tərkibində muxtar respublika kimi təsbit olunmuşdur. Naxçıvan MSSR-in Konstitusiyasında Naxçıvanla Azərbaycan arasındakı qarşılıqlı münasibətlər dəqiq müəyyənləşdirilmişdi. Həmin Konstitusiyanın 52-ci maddəsində göstərilirdi ki, «Naxçıvan SSR Azərbaycan SSR-in tərkib hissəsidir və onun protektoratlığındadır» (12, s.316).

Məkrli erməni daşnakları Naxçıvanın əzəli və əbədi Azərbaycan torpağı olduğuna və bununla bağlı Sovet Ermənistanı hökumətinin özünün də 1920-ci ildə bəyanatlar verdiyinə, nəhayət, Qars müqaviləsini imzaladığına baxmayaraq, bütün XX əsr boyu tarixi şəraitin ermənilərin xeyrinə işlədiyi vaxtlarda iddialarını ortaya qoymuş, onu «böyük Ermənistan»a birləşdirmək üçün gizli və açıq mübarizə aparmışlar. Xüsusilə, keçən əsrin 80-ci illərinin sonlarına yaxın ermənilərin qəsbkarlıq planlarında Dağlıq Qarabağla bərabər Naxçıvan da mühüm yer tutmuşdu. Qədim diyarı blokadaya salan, hava nəqliyyatından başqa digər kommunikasiya xətlərini kəsən, onun Azərbaycanla bütün əlaqələrinə mane olan Ermənistan Naxçıvana qarşı həm də hərbi basqınlara rəvac vermiş, sərhəd kəndlərinə silahlı hücumlar etmişlər. O dövrdə Azərbaycan rəhbərliyinin Naxçıvana biganə münasibəti burada yaşayan əhalinin vəziyyətini bir qədər də ağırlaşdırmışdı.

1990-cı ilin iyul ayının 22-də görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıtması, burada yaşayıb fəaliyyət göstərməsi, 1991-ci il sentyabrın 3-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi bu diyarı gözləyən təhlükələrdən xilas etdi. Heydər Əliyev gəlişi ilə xalqın gələcəyə ümidini özünə qaytardı, Naxçıvanı Azərbaycanın ərazi bütövlüyü və istiqlaliyyəti uğrunda mübarizənin mərkəzinə çevirdi. Ulu öndərin uğurlu fəaliyyəti, nüfuzu o dövrki iqtidarı ciddi narahat edirdi. Necə olursa-olsun Heydər Əliyevi hakimiyyətdən kənarlaşdırmağa çalışırdılar, bu niyyətləri baş tutmadığından Naxçıvanın muxtariyyət statusunu ləğv etməyə cəhd göstərdilər. AXC-Müsavat iqtidarı və bəzi siyasi qüvvələr bunu onunla əsaslandırmağa çalışırdılar ki, Azərbaycan unitar dövlətdir və bu səbəbdən də onun tərkibində muxtar qurum ola bilməz. Guya bu Konstitusiyaya ziddir və Azərbaycanı federativ dövlətə çevrir. Əslində isə burada Konstitusiyaya zidd heç bir şey yox idi. Dünya təcrübəsindən məlumdur ki, bir sıra unitar dövlətlərin (İspaniya, İtaliya, Finlandiya, Portuqaliya və b.) tərkibində müxtəlif səviyyəli muxtar qurumlar mövcuddur.

Əslində isə hamıya yaxşı məlumdur ki, Naxçıvanın ərazi baxımından Azərbaycandan ayrı düşdüyünü və ermənilərin Naxçıvanı ələ keçirə bilməməsi üçün ona muxtariyyət statusu verilmişdir. Keçən əsrin 90-cı illərində respublika mətbuatında belə siyasi qüvvələrə tutarlı cavablar verilirdi.

Naxçıvanın muxtariyyətinin ləğvini birtərəfli qaydada müqaviləni imzalayan heç bir dövlət ləğv edə bilməz. Muxtariyyətin ləğvi beynəlxalq Moskva və Qars müqavilələrinin ləğvi deməkdir. Onda bu, Naxçıvanın siyasi vəziyyətini pisləşdirər və diyarın gələcəyini təhlükə altına alardı. Məkrli düşmənlərimiz də həmin müqavilələrin ləğvinə çalışırlar. Müasir dövrdə Naxçıvan Muxtar Respublikasına ermənilərin ərazi iddialarının əvvəlki kimi qalması muxtar respublikaya verilən statusun vacibliyinə bu gün daha çox ehtiyac olduğunu göstərir.

Ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb işlədiyi illər (1990-93), həm də Azərbaycana rəhbərlik etdiyi dövr Naxçıvanın muxtariyyətinin möhkəmləndirilməsində, muxtar respublikanın erməni hücumlarından qorunmasında mühüm mərhələ təşkil edir. Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə erməni təcavüzü olarkən, diyarın ərazi bütövlüyü pozularkən 1991-ci il yanvar ayının 11-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Moskva və Qars müqaviləsini imzalayan dövlətlərə bəyanat verərək bu hadisəyə münasibət bildirməyə çağırdı. Bir qədər sonra isə, 1992-ci ilin may ayında Naxçıvana erməni təcavüzü artarkən Heydər Əliyev Naxçıvanın siyasi-diplomatik yollarla müdafiəsinin təşkili işinə böyük diqqət yetirdi. Ulu öndər Türkiyə Cümhuriyyətinin rəhbərləri ilə danışıqlar apardı, nəticədə Türkiyənin Nazirlər Kabineti Naxçıvana təcavüzlə bağlı bəyanatla çıxış etdi. Bu hadisə ilə bağlı Heydər Əliyevin apardığı diplomatik mübarizənin ən böyük uğuru dünyanın 57 ölkəsinin Naxçıvana erməni təcavüzünü rəsmi şəkildə pisləməsi ilə nəticələndi (4, s. 829).

Görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyəti Naxçıvanı blokadadan çıxarmağa, qonşu dövlətlərlə sosial-iqtisadi və mədəni əlaqələri inkişaf etdirməyə, onun ərazi bütövlüyünü qorumağa yönəldilmişdi. Bunun üçün Heydər Əliyev Türkiyə və İrana səfərlər etmiş (1992, mart və avqustunda), danışıqlar aparmış, müqavilələr bağlamış və Naxçıvana bu ölkələrdən kredit və enerji verilməsinə nail olmuşdur. 1992-ci ilin mayın 28-də isə Türkiyə ilə Azərbaycan arasında Naxçıvanda Sədərək-Dilucu körpüsünün açılışı ilə diyarı sosial-iqtisadi blokadadan çıxarılmasını təmin etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ABŞ Konqrensinin bədnam 907-ci maddəni qəbul etməsinə baxmayaraq, ABŞ prezidenti B.Klintonun Naxçıvana humanitar yardım göstərməsinə nail olmuşdu. Naxçıvan Muxtar Respublikasının statusunun dəyişdirilməsi ilə bağlı bəzi siyasi qüvvələrin siyasətləri erməni daşnaklarının fəaliyyətləri ilə üst-üstə düşürdü. Ulu öndər Heydər Əliyev 1992-ci il iyun ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclasında çıxış edərək bu məsələyə öz kəskin münasibətlərini bildirdi: «Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır» (3, s. 830). Həqiqətən də, AXC hakimiyyətinin Naxçıvandakı nümayəndələri diyarın muxtariyyət statusunu ləğv etmək, muxtar respublikanın qanuni hakimiyyətini devirmək məqsədilə 24 oktyabrda (1992) çevriliş cəhdi etsələr də, Heydər Əliyevin naxçıvanlıların mütləq əksəriyyəti tərəfindən müdafiə olunan prinsipial mövqeyi bu cəhdin qarşısını aldı.

Keçən əsrin 90-cı illərinin əvvəllərində AXC-Müsavat iqtidarı Azərbaycanı çətin vəziyyətə saldı, ölkə siyasi, iqtisadi, hərbi böhrana düşdü. Bir vaxtlar Heydər Əliyevin kölgəsini belə «qılınclayan» bu səriştəsiz «rəhbərlər» ulu öndəri hakimiyyətə dəvət etməyə məcbur oldular. Mövcud siyasi rejimin özünün mahiyyətindən və yürütdüyü səriştəsiz siyasətdən yaranan hərbi-siyasi hadisələr AXC-Müsavat cütlüyünün hakimiyyətdən getməsi ilə nəticələndi. Ulu öndərin siyasi hakimiyyətə gəlməsi ölkənin, xalqın və müstəqil dövlətçiliyin xilası və möhkəmləndirilməsini təmin etdi. Heydər Əliyev Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafını daim diqqət mərkəzində saxladı, blokada şəraitində olan qədim diyarın dirçəlişi və inkişafı üçün qüvvə və bacarığını əsirgəmdi.

Doxsanıncı illərin ikinci yarısı Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi baxımından diqqəti cəlb edir. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının VIII fəsli «Naxçıvan Muxtar Respublikası» adlanır. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: «Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu

bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir» (3, s.89).

Naxçıvanın muxtariyyət statusunun zəruriliyini əsaslandıran Azərbaycan Prezidenti Heydər Əliyev deyirdi: «Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu çətin bir dövrdə, böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə, Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir. Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt muxtariyyət hüququ veriblər. Bu muxtariyyət hüququ bu çətin vəziyyətdə yaşamaqda, inkişaf etməkdə Naxçıvana böyük şərait yaradıbdır. Amma Naxçıvanın bundan sonra da buna ehtiyacı vardır, müstəqil Azərbaycan dövlətinin içində buna ehtiyacı vardır» (9, s.153).

Azərbaycan Respublikasının Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası hazırlandı. 1998-ci il yanvarın 14-də Prezident Heydər Əliyevin sədrliyi ilə keçirilən Azərbaycan Respublikası Konstitusiya Komissiyanın iclasında muxtar respublikanın Konstitusiya layihəsi geniş müzakirə olundu. Bu iclasda ölkə başçısı qəbul olunacaq konstitusiyanın muxtar respublikanın həyatında, onun ərazisinin və muxtariyyətinin qorunmasında, tarixi taleyində böyük əhəmiyyətə malik olacağını nəzərə alaraq demişdir: «Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır... Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq» (1, c.14, s.89).

Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası Ali Məclisin 1998-ci il aprelin 28-də keçirilən sessiyasında qəbul olundu və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi.

Konstitusiyanın ilk maddəsində göstərilir: «Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır. Naxçıvan Muxtar Respublikasının statusu Azərbaycan Respublikasının Konstitusiyası, 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri müəyyən edir» (5, s.11).

Ulu öndər Heydər Əliyevin tarixi xidmətləri nəticəsində Naxçıvanın muxtariyyət statusu müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında və Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasında öz əksini tapdı.

Prezident Heydər Əliyevin «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» fərmanına uyğun olaraq tədbirlər həyata keçirilmişdir. Əslində həmin fərman bu diyarın tarixinin öyrənilməsi, ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılması və möhkəmləndirilməsi və beynəlxalq ictimaiyyətin diqqətinin bu problemə cəlb edilməsi üçün çox böyük tarixi, siyasi əhəmiyyət daşımışdır.

Həmin fərmanda Naxçıvanın muxtariyyətini şərtləndirən başlıca tarixi-coğrafi amil göstərilirdi: «İlk olaraq Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi» (2, 1999, 5 fevral).

Erməni daşnakları Naxçıvana qarşı ərazi iddialarını keçən əsrin əvvəllərində olduğu kimi, həmin əsrin 90-cı illərində də gerçəkləşdirmək istəyirdilər. Lakin Heydər Əliyevin Naxçıvanda yaşayıb, fəaliyyət göstərməsi onların arzularını gözlərində qoydu. Bu məsələdən bəhs edən Ermənistandakı «Qarabağ Komitəsi»nin üzvü, Milli Müqəddərat Birliyinin sədri Parnur Hayrikyan təəssüf hissi ilə bildirmişdir ki, 90-cı illərin əvvəllərində Heydər Əliyevin Naxçıvanda olması bizə bu bölgəni ələ keçirməyə imkan vermədi. Əgər biz heç nəyə baxmayıb, Dağlıq Qarabağla yanaşı Naxçıvanı da ələ keçirmiş olsaydıq, indi beynəlxalq təzyiq qarşısında Dağlıq Qarabağı qaytarsaydıq belə, Naxçıvan bizə qalardı. Heydər Əliyev bizim planlarımızı alt-üst etdi.

Göründüyü kimi, XX əsrin 20-ci illərində yaranmış şərait, Naxçıvan diyarı əhalisinin inadlı müqaviməti və iki mühüm beynəlxalq müqavilə Naxçıvanın ermənilər tərəfindən işğal edilməsinə mane oldu və diyara Azərbaycanın tərkibində muxtariyyət statusu verildi. Ermənilər Naxçıvanı ələ keçirmək üçün ötən əsrin 90-cı illərində yenidən fəaliyyətə, silahlı basqınlara başladılar. Heydər Əliyevin Naxçıvana gəlməsi, Muxtar Respublikanı başı üzərinə almış təhlükədən, bu qədim diyarı erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Çox ağır bir vəziyyətdə Heydər Əliyev misilsiz siyasi dühası, böyük diplomat peşəkarlığı, müdrikliyi sayəsində Naxçıvan əhalisinin mübarizliyinə, əzmkarlığına arxalanaraq muxtar respublikanı ən ağır sınaqlardan çıxartdı.

O dövrdə baş verən prosesləri xatırlayan Prezident İlham Əliyev həmin illərdən bəhs edərək demişdir: «1990-cı ildə Heydər Əliyev Naxçıvana qayıtdı. O, burada naxçıvanlılarla birlikdə çox ağır və çətin şəraitdə yaşadı, işlədi. Həmin illər Naxçıvan üçün çox çətin, Muxtar Respublikanın gələcəyi üçün həlledici dövr idi. Heydər Əliyevin nüfuzu, təcrübəsi, iradəsi həmin illər Naxçıvanı qorudu. Heç kəs üçün sirr deyil ki, Ermənistan təcavüzü Naxçıvana da istiqamətlənmişdi. Onların planlarında buranın da işğalı var idi. Ermənilər Naxçıvana hücumlar etmişdilər. Amma naxçıvanlılar Heydər Əliyevin rəhbərliyi altında bütün bu hücumların qarşısını aldılar. Naxçıvan yaşadı, burada sülh və əmin-amanlıq təmin olundu» (13, 2004, 16 may).

Qüdrətli dövlət xadiminin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş və bölgəni çiçəklənən diyara çevirmişdir.

Ötən dövr ərzində ölkəmizdə muxtariyyətin möhkəm siyasi və hüquqi bazası formalaşmış böyük bir inkişaf yolu keçilmişdir. Naxçıvanın Muxtar Respublika statusu bu bölgənin 85 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərfli inkişafına da öz layiqli töhvəsini vermişdir. Ölkə Prezidentinin qeyd etdiyimiz sərəncamında göstərildiyi kimi, «Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir» (2, 2009, 7 fevral).

Göründüyü kimi, keçən əsrin 20-ci illərində Naxçıvan əhalisinin inadlı müqavimətləri nəticəsində diyara Azərbaycanın tərkibində muxtariyyət statusu verilmiş, onun hüquqi əsasları yaradılmış, müstəqillik illərində isə həmin statusun qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

### ƏDƏBİYYAT

1.Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. c.14, B., 2005; c.19, B.,2006; c.22, B., 2007.
2.«Azərbaycan» qəzeti.
3.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Azərbaycan», 1997, 112 s.
4.Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. – Bakı, «Azərbaycan», 2008, 840 s.
5.Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Naxçıvan, 1999, 96 s.
6.Мадатов Г. Победа Советской власти в Нахичевани и оброзование Нахичеванской АССР. Баку, 1968, 186 с.
7.Naxçıvan Muxtar Sovet Sosialist Respublikası. Bakı, 1975, 359 s.
8.Soysal İ. Türkiyenin siyasal andlaşmaları c.1 (1920-1945). Ankara, 1989, 704 s.
9.Qədim Naxçıvanda bayram – 75. Bakı, Azərnəşr, 1999, 288 s.
10.Naxçıvan tarixinin səhifələri («Uluslararası qaynaqlarda Naxçıvan» beynəlxalq simpoziumun materialları), Bakı, ADPU-nun mətbəəsi, 1996, 222 s.
11.Əsgərov Z. Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusu. Bakı, «Bakı Universiteti», 1999, 156 s.
12.Azərbaycan tarixi. 3 cilddə. 3-cü cild, I hissə, Bakı, 1973, 548 s.
13.«Respublika» qəzeti.

**ИСМАИЛ ХАДЖИЕВ**

### УКРЕПЛЕНИЕ И СОХРАНЕНИЕ НАХЧЫВАНОМ СТАТУСА АВТОНОМИИ

В статье анализируются общественно-политические события, происходившие в Нахчыванском крае в 20-е годы прошлого века, показана упорная борьба населения Нахчывана за присоединение этого древнего края к Азербайджану, присвоение Нахчывану статуса автономии в составе Азербайджана и значение в этом вопросе Московского и Карского договоров.

Аргументируется деятельность в направлении сохранения и укрепления статуса автономии Нахчывана в годы независимости и меры, принятые в этой связи общенациональным лидером Гейдаром Алиевым.

**ISMAYIL HAJIYEV**

### STRENGTHENING AND PRESERVATION OF AUTONOMY STATUS OF NAKHCHIVAN

In the paper the political events occurring in Nakhchivan region in 20th years of the last century are analyzed, persistent struggle of the Nakhchivan population for joining of this ancient land to Azerbaijan, assignment of the autonomy status to Nakhchivan as a part of Azerbaijan and importance for this problem of the Moscow and Kars contracts are shown.

Activity in the direction of preservation and strengthening of the autonomy status of Nakhchivan in days of independence and the measures accepted thereupon by the national leader Heydar Aliyev are substantiated.

***Rəyçilər: t.e.d.F.Səfərli, AMEA-nın müxbir üzvü Q.Qədirzadə, t.e.d.İ.X.Zeynalov.***

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 23 iyun 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №08).***